# MİLLİ KİNOMUZUN FAZİLİ

## *(Unudulmaz aktyor Fazil Salayevin yaradıcılığı haqqında)*



**...Oğul varisi dünyaya gələndə İdris kişinin sevinci yerə-göyə sığmırdı. O, beşikdən şirin təbəssümlə baxan balaca körpəni də özü kimi sayılıb-seçilən, üç-beş kişidən biri görmək istəyirdi. Qohum-qonşuda, məhəllədə, el içində fəzilətli, gözəl əxlaqa malik, hamıdan üstün, yüksək görmək arzusundan da ona Fazil adını verdi.**

Fazil 44 illik həyat yolunda adının mənası ilə böyüdü. Ailə tərbiyəsilə İdris kişinin arzuladığı kimi fəzilət sahibi oldu, gözəl əxlaqı ilə tanındı. Fitri istedadı ilə heç kimin kölgəsində qalmadı.

Dünya şöhrətli komik Toto sənət kumiri idi. Totonu müasirləri "italiyalı Çaplin"də adlandırırdılar, "gülüşün dirijoru" da. Maraqlıdır ki, Toto ilə Fazil Salayevin oxşar, yaxın cəhətləri çox idi. Hətta onlar zahirən də bir-birinə bənzəyirdilər. Fazil Salayev Totonu çox sevsə də heç vaxt onu təkrarlamadı, özünəməxsus yaradıcılıq yolunu seçdi, milli aktyorluq məktəbimizdə sənətkar zəhmətilə Fazil Salayev zirvəsinə ucaldı. Sonsuz tamaşaçı sevgisilə Fazil kimi sevildi...

Fazil sənət kumiri Toto kimi sehirli dirijor çubuğu ilə tamaşaçıları güldürməyi də bacarırdı, düşündürməyi də... Oynadığı rollar dodaqlarda gülüş, təbəssüm yaradardı. Tamaşa zalını sehrli dirijor çubuğu ilə məharətlə idarə etmək bacarığına qibtə edənlər də az deyildi. Səhnəyə gəlişləri, parlaq ifaları həmişə alqışlanar, tamaşaçıların üzündə gülüş, təbəssüm oyadardı. Tofiq Kazımovun quruluşunda "Ölülər" tamaşasında oynadığı Cəlal obrazında aktyorun sənətkarlıq qüdrətini hər dəfə gülüş dalğaları, sürəkli alqışlar müşayiət edərdi.

Bugünkü ali təhsilli aktyorlardan fərqli olaraq, o heç bir vəzifə kreslosunda əyləşmədi. Aktyor kimi rollara vurduğu sənətkar möhürü ilə tanındı. 27 yaşlı Fazil ilk dəfə 1957-ci ildə "Ögey ana" filmində kiçik epizodda kənd sakini rolunda göründü. Qarşıdakı 17 illik ömür yolunda da yalnız epizodik rollarda çəkildi. Sanki epizodik rollar oynamaq onun yazılmayan alın yazısı idi...

Sənətkar taleyində Ana televiziyamız sayılan Azərbaycan televiziyası xüsusi rol oynadı. "Səhər görüşləri", "Komediyalar aləminə səyahət" kimi verilişlərdə yeni tamaşaçı sevgisi qazandı. Onun çıxış etdiyi səhnəciklər bu gün də Azərbaycan televiziyasının Qızıl fondunda nadir incilər sırasında qorunur.

"Ulduz"da fotomüxbir, "Alma almaya bənzər"də Mehdi, "Dərviş parisi partladır"da Qulaməli, "Sən niyə susursan"da qatil, "Şərikli çörək"də Məhəmməd, "Vulkana doğru gedirəm"də Əliağa kimi ekran obrazları Fazil Salayevin kino yaradıcılığının parlaq səhifələrindəndir.

Fazil Salayevin həyat yolunu birgə vərəqləyək. Fazil İdris oğlu Salayev 1931-ci il sentyabrın 1-də Bakıda dünyaya gəlib. Orta məktəbi bitirəndən sonra sənədlərini Ə.Əzimzadə adına rəssamlıq məktəbinə verir. Rəssamlıq məktəbini bitirəndən sonra orta məktəbdə müəllim işləyir. Rəsm və nəğmə fənlərini tədris edir. Məktəbdə işlədiyi illərdə "Azərbaycan" nəşriyyatında tərtibatçı-rəssam kimi də çalışır.

Qəlbində yaşatdığı aktyor sənətinə olan sevgisilə M.A.Əliyev adına Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil alır. Akademik Milli Dram Teatrının səhnəsində bir sıra maraqlı obrazlar yaradır. Gənclik illərində içkidən uzaq bir həyat yaşayır. Teatrda ilk sənət addımlarında Fazil süni pafosdan qaçaraq səhnədə realizmə, təbiiliyə önəm verir. Tezliklə gənc aktyorun ətrafında həsəddən doğan intriqalar yaranır.

Fazilin həyatı, təbii danışığı, səhnədə davranışı, sərhədsiz yaracılıq imkanları bu intriqaları getdikcə dərinləşdirir. İntriqalar burulğanında çırpınan aktyor içkiyə meyil edir. Və beləliklə teatr rəhbərliyin ciddi məzəmmətlərinə məruz qalır. Fazil Salayev Akademik Dövlət Dram Teatrından uzaqlaşır. Musiqili komediya teatrına üz tutur. Lakin burada da sənət intriqaları onu rahat buraxmır... Sənət intriqalarının nəticəsində musiqili komediya teatrından çıxır. Ömrünün son illərində yenidən Akademik Dram Teatrına qayıdır. Fazil Salayev 1976-cı il iyunun 20-də 44 yaşında ağır xəstəlikdən sonra həyata sonsuz ümid və sevgilərlə baxan gözlərini əbədi yumur....

Kinorejissor, Xalq artisti Həsən Seyidbəylinin Fazil Salayevin ekran taleyində xüsusi rolu var. Həsən Seyidbəyli müxtəlif illərdə quruluş verdiyi "Möcüzələr adası", "Bizim Cəbiş müəllim", "Sən niyə susursan" kimi filmlərə sənətinə xüsusi hörmət bəslədiyi Fazil Salayevi dəvət edir. Gənclərə xüsusi qayğıkeşliklə yanaşan Həsən müəllim 1963-cü ildə ssenarisi əsasında çəkdiyi "Möcüzələr adası"nda Hamlet Xanızadə ilə bərabər Fazil Salayevi də kino aktyoru kimi tanıdır.

Fazil Salayev Həsən Seyidbəylinin filmə daxil etdiyi incə yumor xəttini aktyor oyunu ilə inkişaf etirir. Onun "İnnabı" ilə "Mirzeyi" rəqslərinin fərqini izah etdiyi səhnə milli koloriti ilə fərqlənir. Fazil Salayevin danışığı, əl-qol hərəkətləri, yerişi, mimikaları epizodun komik ahənginə yeni çalarlar gətirir.

Realist aktyor məktəbimizdə Fazil Salayevin yaradıcılığı yeni istiqamət kimi diqqət çəkir. Milli koloritdən şirələnən yumoru, oyun tərzi tamamilə fərqlidir, bənzərsizdir. İfa etdiyi obraza yaradıcı münasibət aktyor üslubunun aparıcı xüsusiyyətlərinə aiddir. Aktyorun oyununa improvizasiya çox doğma idi. O, tez-tez improvizələr edər, yeni-yeni cizgilərlə ifa etdiyi xarakteri dolğunlaşdırardı.

Fazil Salayev yaratdığı obrazlara fitri, təkrarsız istedadı ilə işıq tutur... Zəngin fantaziyası ilə yeni çalarlar, ifadə vasitələri axtarır. Hər obrazda tamamilə yeni, fərqli bir oyun tərzilə görünür. Heç də təsadüfi deyil ki, "Ulduz", "Alma almaya bənzər", "Dərviş Parisi partladır" kimi filmlər bədii-estetik xüsusiyyətləri ilə bərabər bir də Fazil Salayevin təkrarsız aktyor oyunu ilə yadda qalır.

Xalq Artisti, kinorejissor Oqtay Mirqasımovdan Fazil Salayevlə bağlı aldığım müsahibədən...

*Mənim fikrimcə, Fazil Salayev Azərbaycan incəsənət tarixində böyük şəxsiyyət kimi qalıb. Kimsə deyə bilər ki, "böyük şəxsiyyət" epiteti Fazilə yaraşmır, o daha kiçik miqyasda fəaliyyət göstərib. Amma rejissor kimi bu mənim subyektiv fikrimdir. Fazili çox yaxşı xatırlayıram. Biz dost idik. Bizim aramızda qarşılıqlı anlaşma, hörmət və uyğunluq var idi. Fazil çox şux, zarafatcıl insan idi. Ona qarşı həmişə böyük hörmət olub. Oynadığı rollar ulduz səviyyəlidir. Amma ulduz xəstəliyi yox idi onda. O, çox sadə, təvəzökar və özünə tənqidi münasibət bəsləyən insan idi. Hamıya da hörmətlə yanaşardı. Erudisiyası, baxdığı filmlər, ona imkan verirdi ki, öz təcrübəsində yaxşı, yüksək səviyyədə örnəkləri nəzərdə saxlasın. Və bu təcrübə üzərində öz yaradıcılığını qursun. Tələxəklik Fazilə xas deyil. O, çox ziddiyyətli xarakterlər yaradardı. Götürün onun "Mozalan"da yaratdığı tipləri. Və yaxud "Şərikli çörək" filmindən qırçı Məhəmmədi yada salaq. Mən istərdim ki, müasir komik aktyorlar bir az düşünsünlər. Tələxəklik komik aktyorluq janrına cavab vermir. Baxsınlar Fazilə öyrənsinlər. Fazil həm də özü bir dərdli insan idi. Onun həyatı heç də hamar, problemsiz deyildi. Buna baxmayaraq həmişə Fazilin üzü gülərdi. Amma təbəssümü bir az kədərli olardı... Tamaşaçı Fazilə inanır, Fazildə özünü də görürdü. Biz Fazili unutmamalıyıq. Fazil bir məktəbdi.*

Kamil Rüstəmbəyov və Şamil Mahmudbəyovun birgə quruluş verdikləri "Dərviş Parisi partladır" filmində Fazil Salayev Qulaməli rolunu oynayır. Bir neçə epizodda görünsə də komik istedadına hamını bir daha inandırır. Fazil Salayev Qulaməlinin mütiliyi, köləliyilə bərabər riyakar təbiətini də xüsusilə qabardır. Bu filmdə də dediyi sözlər indi də dillərdə zərbülməsəl kimi dolaşır. "Baba Dərviş, müxtəsər eylə, müştəri gəlir..." "Dərviş Parisi partladır" filmində görkəmli sənətkarlar Leyla Bədirbəyli, Adil İsgəndərov, Həsən Turabov, Mirzə Babayevlə bərabər Fazil Salayev də aktyor oyunu ilə tamaşaçıların yaddaşında qalır.

Yaxşı deyiblər ki, kətanla canlı boyaların qatı arasında rəssam qəlbini qoymağı bacarmalıdır. Rəssam təhsilli Fazil Salayevin oynadığı hər obrazda sənətkar qəlbinin döyüntüləri aydın eşidilir. Obrazlarının canlı, həyati olmasının ilkin səbəblərindən biri də məhz budur. Aktyor hər rolu qəlbilə yaşayır, duyur, ona həyat verir. Hələ uşaq ikən isti yay günlərində Bakının küçələrində qan-tər içində işləyən qırçılar, qaynayan qır tiyanları balaca Fazilin diqqətini həmişə çəkir. Hər gün gördüyü bu tanış mənzərələrə bir daha rəssam-aktyor qəlbilə dönə-dönə baxır. Qırçı Məhəmməd obrazının bu qədər real, canlı, inandıcı olmasında aktyorun hələ uşaqlıq dövründəki müşahidələrinin yəqin ki, xüsusi təsiri az olmur.

Kinorejissor, əməkdar incəsənət xadimi Şamil Mahmudbəyovun "Şərikli şörək" filmindəki qırçı Məhəmməd obrazı Fazil Salayevin unudulmaz ekran obrazlarından biridir. Fazil Salayevin kamera qarşısındakı aktyor oyununa heyrətlənməmək çətindir. O, kadrda ən xırda incəliklərə belə aktyor münasibətini bildirir. 1970-ci ildə Fazil Salayev yaradıcılığı boyu onu izləyən növbəti haqsızlığla üzləşir. "Şərikli çörək" filminin yaradıcı heyəti respublika Dövlət Mükafatına təqdim olunarkən Fazil Salayevin adı siyahıdan pozulur...

Fazil Salayevin ekran yaradıcılığını izləyəndə ilk baxışda belə təəssürat yaranır ki, aktyor sanki hər uğura asanlıqla nail olur. Diqqətlə baxdıqa qazanılan hər uğurun arxasında fitri istedadla bərabər, gərgin sənətkar zəhməti, ekran axtarışları, apardığı zəngin həyati müşahidələr aydın görünür. Əməkdar incəsənət xadimi, kinorejissor Teymur Bəkirzadənin "Rəqiblər" qısametrajlı filmində Fazil Salayev realist aktyor oyunu, incə yumoru, yüksək peşəkarlığı ilə fərqlənir. İfa etdiyi obrazın xarici görkəminə, danışıq üslubuna, hərəkətlərinə xüsusi sənətkar diqqəti "Rəqiblər"də yeni rakursda təcəssümünü tapır.

Fazil Salayevin "Molla Cəbi" tamaşasında yaratdığı tip dövrünün sənət hadisələrindən birinə dönür. Çəkilişdə görkəmli sənətkar Əliağa Ağayev nə qədər çalışsa da, Fazil Salayev komizminin gülüşündən qaça bilmir.

Onun çəkildiyi əksər epizodik rolların nadir hallarda fotosınaqları aparılardı. Bu rolların çəkiliş sınaqlarından-kastinqlərindən isə danışmağa belə dəyməzdi. Adətən, həmin rollara çəkilişə bir-iki gün qalmış "növbətçi" aktyorlar çağırılardı. Fazil Salayev yaradıcılıq potensialı ilə Qoqulun "Müfəttiş"ində Xlestakov da ola bilərdi, Osip də. Bobçinski də ola bilərdi, Dobçinski də. O, eyni uğurla Hacı Qaranı da yarada bilərdi, Kərəmlini də. Məşədi İbadla da alqışlanardı, hamballa da. Rüstəm bəyi də oynayardı, Qoçu Əsgəri də. Lakin təəssüf ki, bu rolların heç biri onun sənət taleyinə yazılmadı. Fazil Salayevin geniş yaradıcılıq diapazonu rejissorların diqqətindən kənarda qaldı. Aktyor layiq olduğu əsl səhnə və ekran şöhrətinə qovuşa bilmədi. Keçmiş sovet kinosunun görkəmli nümayəndələrindən Yevgeni Leonov, Yuri Nikulin, Andrey Mironov kimi o da ümumittifaq ekranlarda sənətkar imzası ilə tanınar, milyonlarla tamaşaçıların sevgisini qazana bilərdi.

Fazil Salayevin yaradıcılığında "Mozalan" satirik kinojurnalında yaratdığı tiplər qalereyasında aktyorun ifadə vasitələri rəngarəngdir. O, satiradan, bəzən karikatura elementlərindən, bəzən də qrotesk boyalarından istifadə etsə də ifası həyatiliyi ilə daha çox səciyyəvidir. 2004-cü ildə "Biz və Zaman" festivalında Fazil Salayev "Mozalan" satirik kinojurnalının ən yaxşı aktyoru mükafatına layiq görülür.

Fazil Salayev ekran fəaliyyətində milli kinomuzun görkəmli nümayəndələri—Həsən Seyidbəyli, Şamil Mahmudbəyov, Kamil Rüstəmbəyov, Arif Babayev, Teymur Bəkirzadə, Oqtay Mirqasımovun filmlərində çəkildi. Rejissor göstərişlərinin yaratdığı tiplərin həyatiliyində rolu nə qədər böyük olsa da, aktyorun qazandığı ekran uğuru onun sənət axtarışlarından, yaradıcı "mən"indən qaynaqlandı.

Sənət həyatında Fazil Salayevin heç bir fəxri adı olmadı. Lakin Fazil Salayev kimi tanındı... Kumiri Toto kimi hamı ona elə adı ilə də müraciət etdi. Fazil Xalq Artisti fəxri adını almasa da davam edən sənətkar ömründə də Xalq Artisti kimi sevildi. Fazil Salayev bu gün də yaratdığı obrazların həyatında dahi aktyor kimi yaşayır. Dahilər dünyaya bir dəfə gəlir və heç vaxt ölmürlər deyənlər həqiqətən yanılmırlar...

**Hatəm ƏSGƏROV,**
**rejissor.**